**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**Q Ə R A R**

**№** 3-44/3-9-3/2024

**Bakı şəhəri** “13” may **2024-cü il**

**Karantin tətbiq edilən zərərli orqanizm aşkar edilmiş xiyar təsərrüfatlarında bitki mühafizəsi tədbirlərinin görülməsi haqqında**

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra – Agentlik) Gəncə-Daşkəsən və Bakı regional bölmələrinin Bitki sağlamlığı və fitosanitar nəzarəti sektorunun əməkdaşları tərəfindən Samux rayonunun Ziyadlı kəndində fiziki şəxs Məmmədov Ziyad Əhməd oğluna, Samux rayonunun Sərkar kəndində fiziki şəxs Nəsibov Samir Arif oğluna, Samux şəhərində fiziki şəxs Salmanov Samir Xudabaxış oğluna, Goranboy rayonunun Səmədabad kəndində fiziki şəxs Əlişov Şəhriyar Əli oğluna, Xəzər rayonunun Zirə qəsəbəsində fiziki şəxslər Atayev Natiq Əsgər oğluna və Cəfərov Zahid Akif oğluna məxsus xiyar təsərrüfatlarında fitosanitar müşahidələr aparılmış, xiyar bitkisindən götürülmüş nümunələr laborator müayinələrə cəlb edilmişdir. Laborator ekspertizanın nəticələrinə uyğun olaraq, 2024-cü il 23 mart tarixli AZ-21090035/LAB03-24003-T-003 nömrəli, 2024-cü il 15 aprel tarixli AZ-21090190/LAB03-24002-T-002 nömrəli, 2024-cü il 15 aprel tarixli AZ-22090170/LAB03-24002-T-002 nömrəli, 2024-cü il 27 mart tarixli AZ-22090071/LAB03-24003-T-003 nömrəli, 2024-cü il 23 aprel tarixli 1404055601/LAB03-24018-T-018 nömrəli, 2024-cü il 23 aprel tarixli 1404055601/LAB03-24020-T-020 nömrəli sınaq protokollarına əsasən, götürülən nümunələrdə karantin tətbiq edilən qərb çiçək tripsinin (*Frankliniella occidentalis* (Pergande, 1895)) mövcudluğu təsdiqlənmişdir.

Qeyd olunanlara əsasən, bitki və bitkiçilik məhsullarında zərərli orqanizmlərin kütləvi yayılmasının qarşısının alınmasına, xəstəliklərin aradan qaldırılmasına, məhsul itkisinə yol verilməməsinə, ətraf mühitin və əhalinin sağlamlığının qorunmasına yönəldilmiş bitki mühafizəsi tədbirlərinin həyata keçirilməsi məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə”nin 3.0.33-12-ci yarımbəndinə uyğun olaraq

**Qərara alıram:**

**1.** Agentliyin Gəncə-Daşkəsən və Bakı regional bölmələrinin Bitki sağlamlığı və fitosanitar nəzarəti sektorunun əməkdaşlarına tapşırılsın:

1.1. Samux, Goranboy və Xəzər rayonları ərazisində qərb çiçək tripsi ilə yoluxmuş ərazilərin sərhədləri müəyyən edilsin;

1.2. Samux rayonunun Ziyadlı kəndində fiziki şəxs Məmmədov Ziyad Əhməd oğluna, Samux rayonunun Sərkar kəndində fiziki şəxs Nəsibov Samir Arif oğluna, Samux şəhərində fiziki şəxs Salmanov Samir Xudabaxış oğluna və Goranboy rayonunun Səmədabad kəndində fiziki şəxs Əlişov Şəhriyar Əli oğluna, Xəzər rayonunun Zirə qəsəbəsində fiziki şəxslər Atayev Natiq Əsgər oğluna və Cəfərov Zahid Akif oğluna məxsus xiyar təsərrüfatlarında (bundan sonra – sirayətlənmiş sahələr) istifadə edilən şitilin mənşəyi və digər təsərrüfatlarda da əkilməsi haqqında ətraflı məlumat əldə edilsin.

**2.** Sirayətlənmiş sahələr ən azı üç il ardıcıl olaraq Milli Monitorinq Planına daxil edilsin və digər zərərli orqanizmlərlə yanaşı, qərb çiçək tripsinə görə, mütləq laborator müayinələrə cəlb edilsin.

**3.** İstixanalarda, həmçinin istixananın ətrafında alaq otlarının (xüsusilə badımcançiçəklilər (Solanaceae) fəsiləsinə aid olan) olmamasına nəzarət edilsin.

**4.** Sirayətlənmiş bitki qalıqları bitkinin vegetasiyası dövründə, o cümlədən məhsul yığımından sonra sahədən tamamilə təmizlənsin və tullantıların zərərsizləşdirilməsi üçün nəzərdə tutulmuş yerlərdə məhv edilsin.

**5.** Təsərrüfatlarda qərb çiçək tripsinin populyasiya səviyyəsini izləmək və idarə etmək məqsədilə feromon tələlərdən və ya yapışqanlı lentlərdən (mavi və ya sarı) istifadə edilsin.

**6.** Qərb çiçək tripsi ilə mübarizədə biotexniki mübarizə səmərə vermədikdə və yetkin fərdlərin sayı 10 ədəd/yarpaq olduqda, etiket məlumatları nəzərə alınmaqla insektisid tətbiqi həyata keçirilsin.

**7.** Pestisidlərdən istifadə zamanı istehsal olunan məhsulda pestisidlərin qalıq miqdarının yol verilən həddən artıq olmaması üçün istifadə reqlamenti gözlənilməli və Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sədrinin 2020-ci il 30 yanvar tarixli Ü/012 nömrəli əmri ilə təsdiq edilmiş "Pestisidlərdən istifadə zamanı təhlükəsizlik və şəxsi gigiyena qaydalarına dair Təlimat"da göstərilən təhlükəsizlik qaydalarına ciddi riayət edilsin.

**8.** Sınaq protokollarında qərb çiçək tripsinin mövcudluğu təsdiqlənən təsərrüfatlarda istehsal olunan xiyar məhsulunun ixracı zamanı idxalçı ölkələrin fitosanitar idxal tələbi nəzərə alınmaqla risk əsaslı yanaşma tətbiq edilsin.

**9.** Bu Qərarın icrasına nəzarət Agentliyin Gəncə-Daşkəsən və Bakı regional bölmələri tərəfindən həyata keçirilsin.

**10.** Bu Qərarın icrasından yayınan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

**11.** Agentlik Aparatının Bitki sağlamlığı və bioloji təhlükəsizlik şöbəsi bu Qərarın aidiyyəti üzrə göndərilməsini təmin etsin.

**Bitki sağlamlığı və bioloji təhlükəsizlik**
**şöbəsinin müdiri,**
**Respublikanın baş dövlət fitosanitar müfəttişi** **Taleh Şəmiyev**

Baş Dövlət Fitosanitar Müfəttişi
Chief Phytosanitary Officer
Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi • Food Safety Agency of the Republic of Azerbaijan